# Qarabağ Universitetində vakansiya – Hüquq sektorunun böyük mütəxəssisi

**İşəgötürən:** “Qarabağ Universiteti” publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş “Qarabağ Universitetinin Nizamnaməsi”nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssis və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə daxil edilib.

Qarabağ Universiteti fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

**Vəzifə:** Hüquq sektorunun böyük mütəxəssisi

**İşin təsviri:**
- tələb olunan müqavilələrin, hüquqi məsələlərlə bağlı məktub və digər sənədlərin hazırlanması;
- ali təhsil müəssisəsində hazırlanmış müxtəlif sənədlərə hüquqi rəyin verilməsi;
- universitetdə qanunvericiliyin tələblərinin gözlənilməsi, müəssisənin hüquqi maraqlarının müdafiəsi;
- universitetin təsis sənədlərində edilmiş dəyişikliyin dövlət orqanlarında qeydiyyata alınmasının təmin olunması;
- məhkəmə, dövlət orqanları, ictimai təşkilatlar və digər üçüncü şəxslər qarşısında universitetin təmsil edilməsi, onun hüquq və mənafeyinin müdafiəsi; iddia ərizələrinin hazırlanması, məhkəməyə etirazların təqdim olunması;
- struktur bölmələrə hüquqi dəstəyin göstərilməsi;
- texniki vasitələrdən istifadə etməklə sorğu-məlumat işinin, eləcə də qüvvədə olan qanunvericilik və başqa normativ aktlar, onlara edilmiş əlavələr, dəyişikliklər və ya onların ləğv olunması haqqında qeydiyyatın aparılması;
- rəhbərliyin digər əlaqəli tapşırıqlarının icra edilməsi.

**Tələblər:**
- hüquq ixtisası üzrə ali təhsil;
- hüquq sahəsində 3 il iş təcrübəsi (sözügedən təcrübənin ali təhsil müəssisəsində olması üstünlükdür);
- əmək qanunvericiliyinə dair biliklər;
- təhsil qanunvericiliyinə dair biliklər;
- müəssisələrin hüquq fəaliyyətinə dair metodiki, normativ və digər rəhbər materiallara dair biliklər.

**Tələb olunan sənədlər:**
- tərcümeyi-hal;
- CV;
- ali təhsili təsdiq edən sənəd və ya sənədlərin surəti.

*Qeyd: universitetdə daimi əsaslarla çalışan əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 3 iyun 2024-cü il**

*Müraciət üçün qeyd edilən tarixədək lazımi sənədləri **karabakh@edu.gov.az** elektron poçt ünvanına başlıqda "Hüquq sektorunun böyük mütəxəssisi" yazmaqla göndərməyiniz xahiş olunur.*